# SPORTSMAN

№ 145 / 2023 / 10 manat
www.sportsman.az
Jurnal 2004-cü ildən nəşr olunur





# DÜNYA ÇEMPİONATINDA TARİXİ QƏLƏBƏ

AZERBAIJAN WRESTLING FEDERATION
AZƏRBAYCAN GÜLƏŞ FEDERASİYASI
AGF

## AZƏRBAYCAN GÜLƏŞ FEDERASİYASI

# OCAQ SPORT KLUBU




ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ!? O ZAMAN ONLARI GİMNASTİKA MƏŞQLƏRİNƏ YAZDIRIN. GİMNASTİKA MƏŞQLƏRİ ÜÇÜN RAHATLIQLA ETİBAR EDƏCƏYİNİZ MƏKAN İSƏ "OCAQ SPORT" KLUBUDUR.
ƏLAQƏ NÖMRƏSİ: +99470 879 93 69 / +99450 642 92 82
ÜNVAN: ABBAS SƏHHƏT KÜÇƏSİ 2, HEYDƏR ƏLİYEV ADINA İDMAN ARENASI
WWW.OCAQSPORT.AZ
OCAQKLUB
OCAQSPORTKLUBU
Ocaq
SPORT KLUBU


dizayn
Offissa
İSTƏNİLƏN NÖV OFİS MEBELLƏRİ







(+994) 12 525 41 52
(+994) 55 208 97 82
Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b
salon@offissa.com
www.offissa.com
offissa.dizayn
Offissa Dizayn
Offissa Dizayn
Onlayn Kataloq

ABB

Azərbaycan Beynəlxalq Bankı

*Müasir, Faydalı, Universal*

# BU SAYIMIZDA





3 qızıl, 1 gümüş,
1 bürünclə
komanda yarışlarının
qalibiyik!

səh.6






Güləş üzrə
Dünya Çempionatında
tarixi qələbə

səh.12





Avropa çempionatından
9 medal - 7 qızıl,
2 gümüş

səh.18





İki Dünya
Çempionu

səh.20





"Murov Az Terminal"
klubu Avropa Kubokunun
qalibidir!

səh.22





Qolf üzrə
"Zəfər" turniri

səh.28





Fransadan
5 medal

səh.32





Dünya çempionatından
gümüş medal

səh.34





"Gəncə" voleybol
klubunun üzvləri ilə
görüş

səh.38





Cokoviç Medvedevi
məğlub etdi

səh.42



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*



Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 15 32
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az



Jurnal Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində qeydiyyatdan
keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi
uyğun gəlməyə bilər.
Reklamlarda gedən mətnlərə görə
jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin və
İdman.biz saytının materiallarından
istifadə edilib.


***Üz səhifədə:***

**3 qat Dünya Çempionu**
**Eldəniz Əzizli və**
**2 qat Dünya Çempionu**
**Rafiq Hüseynov**




***Sentyabrın 22-24-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən Bakı Böyük Dəbilqə turniri keçirilib.***

***Rəsmi olaraq "Heydar Aliyev Baku Grand Slam 2023" adlandırılan yarış Milli Gimnastika Arenasında baş tutub.***

# 3 QIZIL, 1 GÜMÜŞ, 1 BÜRÜNCLƏ KOMANDA YARIŞLARININ QALİBİYİK!

Turnirinin açılış mərasimdə gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev, Avropa Cüdo Birliyinin prezidenti Laslo Tot və digər rəsmi şəxslər iştirak ediblər.

İlk olaraq turnirlə bağlı hazırlanan videoçarx təqdim edilib. Ardından çıxış edən Mariana Vasileva Azərbaycanda idmanın inkişafından, ölkə başçısı İlham Əliyevin idmana olan diqqət və qayğısından bəhs edib: "Azərbaycan Cüdo Federasiyası öz işini məharətlə görür. Artıq ölkənin regionlarında belə cüdo sürətlə inkişaf edir. Böyük Dəbilqə turnirinə dünyanın 61 ölkəsinin idmançısı qatılıb. Onlara












uğurlar arzulayıram”.

Daha sonra Rəşad Nəbiyev turnirin Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmasının onlar üçün xüsusi önəm kəsb etdiyini vurğulayıb: “Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında müstəsna rol oynayır. Biz də ölkəmizdə cüdonun inkişafı üçün əlimizdən gələni edirik. Bu il müxtəlif yaş qrupundan olan cüdoçularımız beynəlxalq yarışlarda uğurla çıxış ediblər”.

Laslo Tot isə fikirlərini bildirdikdən sonra yarışı açıq elan edib: “Mükəmməl təşkilatçılığa görə, Azərbaycan Cüdo Federasiyasına, həmçinin, Gənclər və İdman Nazirliyinə təşəkkürümü bildirirəm. Tam əminliklə bilirəm ki, turnir yüksək səviyyədə keçəcək”.

Sonda Azərbaycan Dövlət Himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirilib.











Üç gün davam edən turnirdə 61 ölkədən 446 (264 kişi, 182 qadın) cüdoçu medallar uğrunda mübarizə aparıb. Azərbaycanın cüdo üzrə milli yığma komandası yarışda 11 çəki dərəcəsində 33 cüdoçu ilə - 26 kişi və 7 qadın idmançı ilə təmsil olunub.

“Böyük Dəbilqə” turnirində ən yüksək reytinqə malik iştirakçıların siyahısına Azərbaycan cüdoçusu Hidayət Heydərov (73 kq) başçılıq edib. Dünya reytinq cədvəlinin lideri olan idmançımız, reytinq xallarının sayına görə digər çəki dərəcələrində lider idmançıları geridə qoyub. Ümumilikdə Bakıda altı dünya reytinq lideri - Denis Vieru (66 kq, Mol-











dova), İliya Sulamanidze (100 kq, Gürcüstan), Assunta Skutto (48 kq, İtaliya), Distra Krasnigi (52 kq, Kosovo) və İnbar Lanir (78 kq, İsrail) iştirak edib.

Üç gün gərgin mübarizə əzmində keçən turnirdə cüdoçularımızın çıxışı uğurlu olub. İdmançırımız Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunan Bakı Böyük Dəbilqə turnirində 3 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq, ümumi hesabda və kişilər arasında birinci yerə layiq görülüblər. Gürcüstan ikinci yeri (1-2-0), Yaponiya komandası isə üçüncü yeri (1-1-2) tutub.

Ümumilikdə, "Böyük Dəbilqə" yarışlarında 24 ölkənin cüdoçuları mükafat qazanıblar.

İlk qızılı komandamız elə yarışın ilk günü qazandı. “Qızıl cığırını” cızmaq 66 kq-da çıxış edən təmsilçimiz Yaşar Nəcəfova qismət oldu. Final görüşündə cüdoçumuz yaponiyalı idmançı Takeşi Takeoka qarşılaşıb. Rəqibini cəmi 12 saniyəyə “ippon”la məğlub edən Yaşar, turnirin öz çəkisində ən güclüsü olduğunu sübut edib.

“Qızıl cığırı”nı keçən növbəti cüdoçumuz Hidayət Heydərov olub. 73 kiloqram çəki dərəcəsində çıxış edən Hidayət, finalda moldovalı Petru Pelikana qalib gəlib. Beləcə Azərbaycanın daha bir cüdoçusu Bakıda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük dəbilqə” turnirində qızıl medal qazanıb. Xatırladaq ki, Hidayət Heydərov “Böyük dəbilqə” turnirinin 5 qat qalibidir.

Növbəti gün Azərbaycanın daha bir cüdoçusu “Böyük dəbilqə” turnirində qızıl medal qa-











zanıb. 81 kiloqram çəki dərəcəsində çıxış edən Zelim Tçkayev, finalda Avstriya təmsilçisi Şamil Borçaşviliylə üz-üzə gəlib. Görüşdən qalib ayrılan Zelim, "qızıl cığırı"ni keçən üçüncü idmançımız olub.

Təəssüflər olsun ki, qadın cüdoçumuz Leyla Əliyeva qızıl medalı əldən buraxıb. Bütün rəqiblərini məğlub edən Leyla, finalda italiyalı Skutto Assuntaya uduzaraq gümüş medalla kifayətlənməli olub.

Daha bir medalı komandamızın daxilına Zelim Kotsoyev əlavə edib. 100 kq çəki dərəcəsində çıxış edən Zelim, bürünc medal uğrunda görüşdə xorvatiyalı Zlatko Kumriç ilə qarşılaşıb. Görüşdə qalib olan cüdoçumuz fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Beləcə, Milli Gimnastika Arenasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş cüdo üzrə "Böyük dəbilqə" turniri Azərbaycan komandasının parlaq qələbəsi ilə tarixə qovuşdu.




***Yaşar Nəcəfov:***

## Əsas hədəfim Paris Olimpiadasıdır

"Bu turnirdə əsas hədəfim qızıl medal qazanmaq idi və xoşbəxtəm ki, bunu bacardım. Güclü rəqiblərimiz var idi. Buna baxmayaraq var gücümlə mübarizə apararaq, qızıl medala sahib oldum. Qarşıdan gələn cüdo üzrə Avropa çempionatına da yüksək səviyyədə hazırlaşacağam. Əsas məqsədim "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib, Azərbaycan himnini səsləndirməkdir".

***Hidayət Heydərov:***

## Olimpiya Oyunlarında da xalqımı sevindirmək istəyirəm



"Keçirdiyim hər görüş çox gərgin idi. Bütün görüşlərimə final kimi baxırdım. Ən çətini isə yarımfinal qarşılaşması oldu. 2023-cü il mənim üçün uğursuz başlamışdı. Hətta bir neçə yarışda qalib olmadığım üçün məyus idim. Lakin ruhdan düşmədim. Qarşıma məqsəd qoymuşam ki, Avropa çempionatının da qalibi olacam. Hazırda əsas məqsədim "Paris-2024" Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaqdır. Əlimdən gələni edəcəm ki, Olimpiya Oyunlarında da iştirak edim və xalqımı sevindirim. Azarkeşlərin ümidlərini doğrultduğum üçün də çox sevincliyəm. Onlar məni çempion kimi görürdülər. Şükürlər olsun ki, mən də bunu bacardım".

# AZƏRBAYCAN İDMAN İCTİMAİYYƏTİNƏ AĞIR İTKİ ÜZ VERİB



***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası" kafedrasının müdiri, professor Nazim Məcidov 68 yaşında vəfat edib.***

Məcidov Nazim Böyük-Ağa oğlu 1955-ci ildə Bakı şəhərində anadan olub.

1977-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1987-ci ildə isə Moskvada Lenin ordenli Mərkəzi Dövlət Bədən Tərbiyəsi İnstitutunun aspiranturasını müvəffəqiyyətlə bitirib.

1989-cu ildə Moskva şəhərində Bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığı elmi-tədqiqat istiqamətində namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi (pedaqogika üzrə fəlsəfə doktoru) elmi dərəcəsi alıb.

1993-cü ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona dosent elmi adı, 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi adı verilib.

Uşaq yaşlarından cüdo güləşi ilə məşğul olmuş, sambo və cüdo üzrə dəfələrlə şəhər, respublika və ümumittifaq yarışların qalib və mükafatçısı olub. 1980-cı ildən SSRİ İdman Ustasıdır. Məşqçilik fəaliyyətindəki uğurları dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, 2001-ci ildə ona "Fəxri Bədən Tərbiyəsi və İdman işçisi", 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar Məşqçisi fəxri adı, 2010-cu ildə isə Bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar Müəllimi, 2021-ci ildə isə Azərbaycan Respublikasının Fəxri Bədən tərbiyəsi və idman Xadimi fəxri adları verilib.

Professor Nazim Məsidov 40 ildən artıq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında çalışıb.

1979-1994-cü illərdə Akademiyanın "Güləşmənin nəzəriyyəsi və metodikası" kafedrasında müəllim, baş müəllim, dosent vəzifəsində,

1994-2006-cı illərdə "İdmanın təkmübarizlik növləri" fakültəsinin dekanı,

2006-2016-cı illərdə Elmi işlər üzrə prorektor,

2016-cı ildən bugünədək "Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası" kafedrasının müdiri vəzifəsində uğurla çalışıb.

Son illərdə Akademiyada aparılan yenidənqurma işlərində fəal iştirak edib, "Onlayn Universitet" layihəsi çərçivəsində Akademiyada bütün kurslar üzrə imtahan-test suallarının hazırlanması komissiyasına və Azərbaycan Cüdo Federasiyasında məşqçilərin təkmilləşdirilməsi kurslarına uğurla rəhbərlik edib.

100-dən çox elmi, elmi-metodiki əsərin, o cümlədən 1 monoqrafiya, 2 dərslik, 6 metodiki vəsait, 20 tədris proqramının və çoxlu sayda elmi məqalələrin müəllifi olub.

Bununla yanaşı, onun bədən tərbiyəsi və idman sahəsində gənc elmi kadrların yetişdirilməsində də əməyi böyük olub. Onun elmi rəhbərliyi altında 47 tələbə magistrlik dissertasiyası müdafiə edib.

Allah rəhmət eləsin!

# GÜLƏŞ ÜZRƏ DÜNYA ÇEMPİONATINDA TARİXİ QƏLƏBƏ



***Sentyabrın 16-24 tarixlərində Belqradda güləş üzrə dünya çempionatı keçirilib. Çempionatda 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına ümumilikdə 90 lisenziya oynanılıb. Yarışda ümumilikdə 1000-dən çox idmançı gücünü sınayıb.***

Olimpiya kateqoriyalarının hər birində iştirakçılar beş kvota uğrunda mübarizə aparıblar. Dörd medalçı öz ölkələri üzrə vakansiya qazanıb. Dünya Çempionatında Azərbaycan komandası 26 idmançı ilə təmsil olunub.




## SƏRBƏST GÜLƏŞ

Dünya çempionatı sərbəst güləşçilərin çıxışı ilə başladı.



Ötən il olduğu kimi yenidən bu növdə ABŞ-ın hegemonluğu davam etdi. Bu komandada azərbaycanlı güləşçi də çıxış edirdi. 61 kq-da xalçaya çıxan Vita Arucau, bizim Vitali Orucov kimi tanıdığımız idmançı fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Azərbaycanlı güləşçi Bakıda doğulub. O, sonradan Amerikaya köçən Vüqar Orucovun oğludur. Vitali, finalda 2021-ci il Osloda keçirilən mundialın qalibi, neytral bayraq altında mübarizə aparan rusiyalı Abashacı Maqomedovu məğlub edərək qalib olub. Bu Vitalinin dünya çempionatında qazandığı ilk qızıl medalıdır.

70 kq-da da ABŞ "qızıl" heç kimə güzəştə getməyib. Bu çəki dərəcəsinin həlledici döyüşündə azarkeşlər ABŞ - İran duelini izləyiblər. Zein Vizerford Əmir Yəzdani Məhəmmədə qarşı mübarizə aparıb. Bu mundiala qədər hər iki idmançının aktivində dünya çempionatının gümüş medalı olub. Gərgin keçən qarşılaşmada amerikalı 8:5 hesablı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsində yer alıb. İran ABŞ qarşıdurması 86 kq-da güləşçilərin mübarizəsində də davam edib. Bir tərəfdə Rio-de-Janero Yay Olimpiya Oyunlarının qalibi, Tokio-2020-nin finalçısı və 3 qat dünya çempionu iranlı Həsən Yəzdani, digər tərəfdə Tokio-2020-in çempionu və eyni zamanda 3 qat dünya çempionu Devid Teylor yer alıb. Bu qarşılaşmanın intriqasını artıran əsas məqam idmançıların artıq 4-cü dəfə finallarda üz-üzə gəlməsi idi. Tokio Olimpiadasında Devid rəqibini məğlub etməyi bacarmışdı. Ötən il Belqradda keçirilən DÇ-nın finalında da sevinən tərəf ABŞ idmançısı olmuşdu. Həsənin rəqibi üzərində yeganə qələbəsi isə 2021-ci ildə Osloda keçirilən mundialda qeydə alınmışdı. Sayca 4-cü qarşıdurmada da sevinən tərəf Deyvid Teylor oldu. O, rəqibini 9:3 hesabı ilə məğlub etdi.

Ən ağır çəki olan 125 kq-da güləşsevərlər 9 qat Avropa, 3 qat dünya çempionu Türkiyəli Taha Akgüldən qızıl medal gözləsələr də, bu baş vermədi. Hadisələr 2021-ci ildə Osloda keçirilən Dünya çempionatının eynisi kimi cərəyan etdi. İranlı Əmir Hüseyin Zadə Taha Akgülü öz yolundan uzaqlaşdıraraq finala yüksəldi. Osloda olduğu kimi burda da onun rəqibi 3 qat dünya çempionu gürcüstanlı Geno Petriaşvili oldu. Finlandiyadakı yarışdakı









kimi bu dəfə də qalib gələn Əmir 2-ci dəfə qızıl medala sahib çıxdı. Taha Akgül isə Osloda olduğu kimi yarışı bürünc mükafat ilə tamamladı.

Belqradda keçirilən dünya çempionatında Paris Olimpiadasına ilk lisenziya qazanan güləşçimiz 97 kq-da çıxış edən Maqomedxan Maqomedov olub.

İdmançımız Serbiya, Türkiyə, Almaniya və Gürcüstan güləşçilərinə qalib gələrək finala yüksəlib.

Bu uğur 97 kq-da ölkəmizə olimpiya lisenziyası qazandırıb. Maqomedxan Maqomedov bununla bağlı təəssüratlarını Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətiylə bölüşüb: "Neçə ildi məşqlər edirdik, hazırlaşırdıq. Bu yerdə olmağıma görə atama təşəkkür edirəm. Azərbaycana, federasiya rəhbərliyinə, məşqçilər heyətinə minnətdarlığımı bildirirəm. Bu gün Allah bizim tərəfimizdə idi. Daha öncə Gürcüstan güləşçisinə 2 dəfə məğlub olmuşdum. Burada revanş aldım.

Finaldakı rəqibim haqqında onu deyə bilərəm ki, hər ikimiz bir-birimiz üçün sürprizik. İndiyədək heç vaxt qarşılaşmamışıq. Çox gənc və yaxşı güləşçidir. Kayl Snaydera tam üstünlüklə qalib gəldi. Abdulrəşidi məğlub etdi. Ancaq Sadullayevin zədəsi var idi. Yaxşı formada deyildi. Açığı, finalda Abdulrəşidlə qarşılaşmaq istərdim. Daha öncə dəfələrlə turnirlərdə güləşmişik və ona uduzmuşam. Ancaq bu dəfə onunla qarşılaşmaq qismət olmadı. Bütün normal və özünə hörmət edən idmançıların arzusu olimpiya çempionu olmaqdır. Biz də buna çalışacağıq. Hədəfimiz əvvəlcə Avropa çempionatında, daha sonra isə Olimpiadada uğur qazanmaqdır".

Final görüşü olduqca maraqlı keçib. İdmançımız Maqommedxan Maqomedov Bəhreyini təmsil edən Rusiya idmançısı Əhməd Tazhudinovla üz-üzə gəlib. Maraqlısı budur ki, Əhməd bu çəkinin əsas favoriti olan rusiyalı Əbdülrəşid Sadullayevi məğ-












lub edərək finala yüksəlib. Dağıstan əsilli 20 yaşlı Tazhudinov Sadullayevin tələbəsi sayılır. Əhməd Maqommedxana qalib gələrək ilk dünya çempionluğunu qazanıb.

Daha bir gümüş medalı komandamıza Osman Nurməhəmmədov qazanıb. Qeyri-olimpiya çəkisində finala yüksələn Osman (92 kq), həlledici görüşdə qazaxıstanlı Rizabek Aitmuxanla qarşılaşıb. Gərgin mübarizə əzmində keçən görüş qazaxıstanlı güləşçinin qələbəsi ilə yekunlaşıb.

Sərbəst güləş yarışlarını ABŞ 148 xalla 1-ci, İran 110 xalla 2-ci, Gürcüstan isə 80 xalla 3-cü bitirib. 66 xalı olan Azərbaycan 5-ci olub.

## QADIN GÜLƏŞİ

Mundialın 6-cı günü qadın güləşçilərin mübarizəsinə yekun vurulub. Təəssüflər olsun ki, bu dünya çempionatı qadın güləşçilərimiz üçün uğurlu alınmadı. Belə ki, təmsilçilərimizdən heç biri mükafatçılar sırasına düşə bilmədilər. Ancaq qardaş Türkiyə güləşçisi Buse Tosun qazandığı qızıl medalla bizləri sevindirə bildi. 68 kq çəki dərəcəsinin finalında Buse ilə monqolustanlı Enkhsaikhan Delqermaa qarşılaşıb. Buna qədər dünya çempionatlarında 2 bürünc medalı olan Buse, rəqib üzərində qələbə qazanaraq mundiallarda ilk qızıl medalına sahib çıxıb. Bu, Türkiyənin qazandığı ilk qızıl medal olub.

Yeku nəticəyə əsasən isə Yaponiya 195 xalla 1-ci, ABŞ 135 xalla ikinci olub. İlk "üçlüy"ü isə 80 xalla Monqolustan tamamlayıb.



## YUNAN-ROMA GÜLƏŞİ




Yunan-Roma güləşçilərimizin dünya çempionatında çıxışı möhtəşəm alınıb. 55 kq-da çıxış edən Eldəniz Əzizli bütün rəqiblərinə qalib gələrək finala yüksəlib. Həlledici qarşılaşmada idmançımız gürcüstanlı Nuqzari Tsurtsumia ilə üzləşib. Rəqibinə 13:4 hesabı ilə asanlıqla qalib gələn Eldəniz, üçüncü dəfə dünya çempionu olub.

82 kiloqram çəkidə yarışan Rafiq Hüseynovun isə final görüşü çox gərgin keçib. Təmsilçimizin rəqibi təcrübəli İran idmançısı olub. Əsl əzmkarlıq nümayiş etdirən Rafiq, Əlirza Mohmadipianini 2:1 hesabı ilə məğlub etməklə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

77 kiloqram çəki dərəcəsində güləşən idmançımız Sənan Süleymanov isə qızılın bir addımlığında onu əldən buraxıb. Qızıl medal uğrunda görüşdə Sənanın rəqibi qırğızıstanlı Akjol Mahmudov olub. Bu görüşdə bəxt amili rəqib tərəfdə olub. Belə ki, Sənan sonuncu xal prinsipinə əsasən (1:1) uduzaraq, gümüş medalla kifayətlənməli olub.

Mundialın son günündə daha 3 çəki dərəcəsində qaliblər müəyyənləşib. 63 kq çəki dərəcəsinin finalında Azərbaycan güləşçisi Murad Məmmədovla gürcüstanlı Leri Abuladze üz-üzə gəlib. 2 qat Avropa və son dünya çempionatlarının gümüş mükafatçısı olan Leri, 3-cü cəhdindən qızıl medala sahib çıxıb. Bu, Muradın Oslodakı mundialda qazandığı bürünc medaldan sonra ən yaxşı nəticəsi olub.

Digər təmsilçimiz 67 kq çəki dərəcəsində çıxış edən Həsrət Cəfərov da finala yüksəlməyi bacarıb. Onun rəqibi güclü Kuba güləşçisi Luis Alberto olub. Həsrət Tokio-2020-nin qalibinə ciddi müqavimət göstərsə də 3:4 hesabı ilə uduzub. Bu, Albertonun dünya çempionatında ilk medalı olub.

87 kq çəki dərəcəsinin finalında isə Türkiyə və Macarıstan güləşçiləri qarşılaşıblar. Əli Çingizin rəqibi David Losonczi olub. Ötən mundialın bürünc mükafatçılarının duelində "ay-ulduzlu" yığmanın üzvü 8:7 hesabı ilə qalib gələrək, Türkiyəyə mundialda 2-ci qızıl medalları qazandırıb.

Beləliklə, yunan-Roma güləşi üzrə yarışlara və mundiala yekun vurulub. Azərbaycan üçün qürurlu anlarla yadda qalan bu növdə yekunda da tarixi nəticə qeydə alınıb. "Klassiklərimiz" tarixdə ilk dəfə mundialı birinci sırada yekunlaşdırıblar. Azərbaycan 120 xalla ilk pillənin sahibi olub. İran 102 xalla 2-ci, Türkiyə isə 93 xalla 3-cü olub.

Ümumi medal sıralamasını isə Yaponiya lider olaraq tamamlayıb. "Gündoğan ölkə" təmsilçiləri 6 qızıl, 3 gümüş və 3 bürünc medalla 1-ci olublar. 4 qızıl, 3 gümüş və 7 bürünclə ABŞ 2-ci sırada yer alıb. Qırğızıstan 3 qızıl, 1 gümüş və 1 bürünc medal ilə 3-cü olub. İlk "dördlüy"ü Azərbaycan qapayıb - 2 qızıl, 5 gümüş medal.




### Eldəniz Əzizli
### Üçqat dünya çempionu

"Azərbaycanın bütün idman ictimaiyyəti bilirdi ki, mən 3-cü dəfə dünya çempionu olmağı necə istəyirdim. Allaha həmd olsun. Müstəqillik tarixində yunan-Roma güləşində 3 qat dünya çempionumuz yox idi. Məhyəddin Allahverdiyev 1980-ci illərdə - SSRİ dövründə 3 dəfə dünya çempionu olmuşdu.

Dünya çempionatına ciddi ha-

zırlaşırdım. Çox məşq edirdim. Müəyyən zədələrim var idi. Buna baxmayaraq, 3-cü dəfə dünya çempionu ola bildim. Medalımı bütün Azərbaycan hərbçilərinə həsr edirəm. Biz burada qalib gəldik, onlar isə orada. Əlbəttə, sinəmdəki zədə mənə çətinlik yaradırdı. Sümüyüm sınmışdı. Tam bərpa olunmasa da, yenə də bacardım. Rəbbim bu qələbəni mənə nəsib etdi. Dördüncü dəfə dünya çempionu olmağa çalışacağam".




**Rafiq Hüseynov**
**İkiqat dünya çempionu**

"Qarşıda bizi dörd lisenziya gözləyir. Dünya çempionatında iki qızıl medal əldə etmək böyük uğurdur.

Eldəniz Əzizli və və mən qızıl medal qazandıq. Bu tarixi nailiyyət təkcə bizim zəhmətimiz ilə deyil, eyni zamanda ölkə rəhbərliyinin, Gənclər və İdman Nazirliyinin, Güləş Federasiyasının köməyi ilə oldu.

Məşqçilərə, həkimlərə, yığma komandanın bütün üzvlərinə təşəkkür edirəm. Mənim üçün yaddaqalan bir gün oldu. İlk dəfə atam məni güləş zalına məhz final qarşılaşmasına çıxdığım gün aparmışdı. Atam 28 il bundan qabaq məni zala aparanda mənə ümidləri çox idi. Sevinirəm ki, onun ümidlərini doğrulda bildim. Komanda olaraq hər birimiz əlimizdən gələni edəcəyik ki, yeni nailiyyətlər qazanaq və bizi sevənləri yenidən sevindirək".

**Elçin Cəfərov:**

"Bu nailiyyətdə Azərbaycan Güləş Federasiyası, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsinin əvəzedilməz rolu var. Hər tərəfdə ciddi hazırlıqlar gedirdi, çox çalışırdılar. Sevindirici haldır ki, yunan-Roma güləşçilərimiz ümidləri doğrultdu, əziyyətləri yerdə qalmadı. Bu, Azərbaycan idmanında möhtəşəm hadisə kimi tarixə düşdü. Rafiq Hüseynov ikiqat, Eldəniz Əzizli üçqat dünya çempionu oldu. Komandanın beş üzvü finalda mübarizə apardı. Hesab edirəm ki, bu uğur federasiya rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğının nəticəsidir. Təbii ki, vaxtlı-vaxtında keçirilən təlim-məşq toplanışlarının da kifayət qədər təsiri oldu.

Finalda uduzan idmançıların da çıxışlarını qənaətbəxş sayıram. Qızıl medal ala bilməyən idmançılarımız hələ çox gəncdirlər. Onların da hazırlıqları yüksək səviyyədə idi, hər biri yaxşı çalışmışdı. Hamısından nəticə, bəzilərindən Olimpiya lisenziyası gözləyirdik. Ancaq bu, idmandır. Gözlənti heç nəyi dəyişdirmir, əsas real nəticədir. Hazırkı nəticələr də bizi olduqca qane edir. Bütün hallarda nəticə möhtəşəmdir, tarixi qələbədir.

Ancaq lisenziya qazana bilməyən güləşçilərimizin hələ iki şansı var. İnanıram ki, onlar qarşıdakı lisenziya turnirlərində uğur qazanacaqlar. Sərbəst güləşçilərimizdən isə ikisi fəxri kürsüyə qalxdı. 97 kiloqram çəki dərəcəsində yarışan Maqomedxan Maqomedov lisenziya əldə etdi. Nəticəni öz xeyirlərinə dəyişmək üçün sərbəst güləşçilərin də şansı var.

Qadın güləşçilərimizə gəldikdə isə təlim-məşq bazamız bir olsa da, onların hazırlıq planları ilə elə də yaxından tanış deyiləm. Ümid edirəm ki, sonrakı yarışlara daha yüksək səviyyədə hazırlaşacaqlar.






# AVROPA ÇEMPİONATINDAN 9 MEDAL - 7 QIZIL, 2 GÜMÜŞ

***Oktyabr ayının 18-22-si tarixlərində Bolqarıstanın Varna şəhərində Akrobatika gimnastikası üzrə 31-ci Avropa çempionatı keçirilib. 21 ölkədən 105 böyükyaşlı və 144 gənc gimnastın iştirak etdiyi budəfəki qitə çempionatı Azərbaycan üçün yüksək nəticə və rekord sayda qızıl medalla yadda qaldı. Yarışda ölkəmizi təmsil edən yığma komandamızın üzvləri, sözün əsl mənasında Avropanı fəth etməyi bacardılar. Akrobatika gimnastikası üzrə təmsilçilərimiz Avropa çempionatında 7 qızıl, 2 gümüş medala sahib çıxdılar.***

Yarışda ölkəmizi böyüklər arasında Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük, Nəzrin Fərmanova, Aynur Yusufova, Lalə Hüseynovadan ibarət qadın qrupu, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyü, gənclər arasında isə Nəzrin Zeyniyeva, Zəhra Rəşidova, Anahita Bashiridən ibarət qadın qrupu təmsil etdi.




Varna xalçasında parlaq çıxışları ilə göz qamaşdıran təcrübəli idmançılarımız, dünya və Avropa çempionatının gümüş mükafatçıları olan Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz komandamızın aktivinə Avropa çempio-

# GİMNASTİKA

natının 3 qızıl medalını (temp - 28.910 xal, balans -29.180 və çoxnövçülük-86.620 xal) yazdırmağı bacardılar.

Qarışıq cütlüyümüz qızıl medala gedən yolda hər üç proqramın icrasında müvafiq olaraq ikinci və üçüncü pillələrdə qərarlaşan Ukrayna və Almaniya təmsilçilərini geridə qoydular.

Dünya çempionatının ikiqat bürünc mükafatçıları, gənclər arasında Avropa çempionları olan Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz Varnada komanda yoldaşlarının uğurunu təkrarlayaraq, üç dəfə fəxri kürsünün birinci pilləsinə yüksəlməyi bacardılar. Təmsilçilərimiz temp (27.510 xal), balans (28.230 xal) və çoxnövçülük (82.370 xal) proqramında bütün rəqiblərindən üstün oldular.

Kişi cütlüyümüz balans hərəkətlərində ikinci yerin sahibi İspaniya və bürünc medalçılar olan Böyük Britaniya təmsilçilərini, templə hərəkətlərin icrasında və çoxnövçülük proqramında isə ispaniyalı və portuqaliyalı rəqiblərini geridə qoydular. Bu nəticə ilə gimnastlarımız Azərbaycan gimnastika tarixində ilk dəfə qarışıq cütlük və kişi cütlüyü kateqoriyasında böyüklər arasında Avropa çempionu titulunu qazanmağa nail oldular.



Gənc idmançılarımız da Varnada məharətli və özünəinamlı çıxışları ilə öz sözlərini deməyi bacardılar. Gənclər arasında çıxış edən Nəzrin Zeyniyeva, Zəhra Rəşidova, Anahita Bashiri onlara bəslənilən ümidləri doğruldaraq, 1 qızıl, 2 gümüş medala sahib çıxdılar. Temp hərəkətlərində (27.440 xal) komandamıza ilk medalı, ikinciliyi qazandıran gimnastlarımız daha sonra bu uğuru çoxnövçülük proqramında (83.690 xal) təkararladılar. Balans hərəkətlərində gimnastlarımız 28.450 xalla Böyük Britaniya və Hollandiya təmsilçilərini geridə qoyaraq hamıdan üstün olmağı bacardılar.

Yeni heyətlə qitə çempionatına qatılan böyüklərdən ibarət qadın qrupumuz təəssüf ki, medal qazanmağa müvəffəq olmadı. Təmsilçilərimiz təsnifat mərhələsində balans hərəkətlərinin icrasında 25.360 xalla 10-cu, temp hərəkətləri (24.670 xal) və çoxnövçülükdə (72.370 xal) isə 11-ci nəticəni göstərdi.

Azərbaycan Gənclər və İdman naziri, Avropa Gimnastikasının prezidenti Fərid Qayıbov Bolqarıstanın Varna şəhərinə səfər edib. Nazir akrobatika gimnastikası üzrə 31-ci Avropa çempionatında ölkəmizi uğurla təmsil edən idmançılar və onların məşqçiləri ilə görüşüb.

Fərid Qayıbov Azərbaycan yığma komandasının üzvlərini təbrik edib, onlara gələcək yarışlarda yeni-yeni uğurlar arzulayıb.





# İKİ DÜNYA ÇEMPİONU

***İtaliyanın Sardiniya adasında 20 yaşa qədər olan qız və oğlan şahmatçılar arasında rapid və blits üzrə dünya çempionatı keçirilib. Azərbaycan şahmatçılarının çempionatda çıxışı möhtəşəm alınıb.***

İlk olaraq şahmatçılar rapid üzrə güclərini sınayıblar. Təmsilçimiz Gövhər Beydullayeva dünya çempionatında tarixi uğura imza atıb. Gövhər 9 oyundan 11 xal toplayaraq çempionatı birinci pillədə başa vurub. Bununla da Gövhər Azərbaycan şahmatı tarixində 20 yaşlılar arasında çempion olan ilk qadın şahmatçı olub.

Ölkəmizin digər şahmatçısı Məhəmməd Muradlının çıxışı isə blitsdə əla alınıb.

Azərbaycan şahmatçısı 11 oyundan 9,5 xal toplamaqla bütün rəqiblərini qabaqlayaraq qızıl medala layiq görülüb.

Qadın şahmatçıların yarışına isə artıq dünya çempionu kimi qatılan Gövhər Beydullayeva 7,5 xalla liderdən 1 xal geri qalıb. Yekun nəticədə rapid üzrə dünya çempionumuz blits üzrə dünya çempionatında bürünc medal qazanıb. Beləliklə, Azərbaycanın iki şahmatçısı mötəbər yarışda ümumilikdə 3 medal qazanmaqla azarkeşləri sevindirib.





## *Gövhər Beydullayeva Dünya çempionu*




"Bu günlərdə Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 20 ili tamam oldu. Hər zaman onun dəstəyini və qayğısını hiss etmişik.

Ötən il olduğu kimi, bu il də qızlar və oğlanlar arasında qızıl medal qazanmağı bacardıq. Sevinirəm ki, İtaliyada iki dəfə Dövlət Himnimiz səsləndi. Mənə dəstək olan hər kəsə çox təşəkkür edirəm.



Ancaq bu hələ son deyil. Qarşıda bizi daha çətin turnir gözləyir. Bir həftə sonra Böyük Britaniyada "Qrand Svis"də iştirak edəcəyəm. Orada dünyanın ən güclü qadın qrosmeysterləri yarışacaqlar. Həmin turnirdə də yüksək performans göstərmək üçün əlimdən gələni edəcəyəm".

## *Məhəmməd Muradlı Dünya çempionu*




"Prezident İlham Əliyev hər zaman idmançılara dəstək göstərir. Bunun nəticəsində də belə uğurlar əldə olunur. Qazandığımız qələbəni dövlətimizin başçısına həsr edirik.

Mundialda əsas məqsəd həm rapid, həm də blits növlərində uğurlu çıxış etmək idi. Təəssüf ki, rapid yarışında bunu bacarmadım. Bundan sonra bütün gücümü toplayaraq, blits növündə mübarizə apardım. Sevindirici haldır ki, oyun istədiyim kimi alındı. 11 oyundan 9,5 xal toplayaraq bütün rəqiblərimi üstələdim və yekunda səkkiz ildən sonra yenidən dünya çempionu oldum. Bundan sonrakı yarışlara da çox ciddi hazırlaşıb, uğurlu nəticələr qazanmağa çalışacam.

dünya çempionu olduğunu söyləyən M. Muradlı gələcəkdə də vurğulayıb.

Qeyd edək ki, Məhəmməd Muradlı blits, Gövhər Beydullayeva isə rapid növündə dünya çempionu olub.

# "MUROV AZ TERMİNAL" KLUBU AVROPA KUBOKUNUN QALİBİDİR!




***5-8 oktyabr tarixlərində Türkiyənin Balıkesir şəhərində Avropa Voleybol Konfederasiyasının (CEV) ilk dəfə təşkil etdiyi çimərlik voleybolu üzrə Avtopa Kuboku yarışları keçirilib.***

Azərbaycanı bu turnirdə iki klub - qadınlardan ibarət "Azərreyl", kişlərdə isə "Murov Az Terminal" klubu təmsil edib. Bir neçə mərhələ adlayan "Azərreyl", mükafatçılar sırasına qalxmayaraq yarışı dayandırmalı olub. Kişi voleybolçularımızın çıxışı isə möhtəşəm alınıb. "Murov Az Terminal" klubumuz İtaliyanın "Beach Volley Training Beinasco", Avstriyanın "ABC Wörthersee", İspaniyanın "Beachbol La Malva Valencia" və Türkiyənin TVF Spor Lisesi SK Ankara" klubu ilə üz-üzə gəlib.



# ÇİMƏRLİK VOLEYBOLU




Tarixində ilk dəfə keçirilən Avropa Kuboku yarışlarında kişi voleybolçularımız elə tarix yazıblar. Belə ki, Azərbaycanı təmsil edən ”Murov Az Terminal” klubu turnirin qalibi olub.

Klub buna çempionluq matçında ev sahibi Türkiyənin nu məğlub edərək nail olub. Komandalar arasında keçirilən iki oyundan birində ev sahibləri, ikincisində isə Azərbaycan təmsilçisi qələbə qazanıb. Kubokun qalibi isə qızıl setdə müəyyənləşib. Təmsilçilərimiz 15:10 hesabı ilə qalib gələrək azarkeşləri sevindirib.

Qeyd edək ki, Murov Az Terminal klubu çimərlik voleybolunda Azərbaycana CEV-in təşkilatçılığı ilə keçirilən yarışlarda ilk qızıl medalı qazandırıb.





## Qaliblərlə görüş



Azərbaycan Voleybol Federasiyasının (AVF) rəhbərliyi çimərlik voleybolu üzrə Avropa Kubokunun qalibi olmuş idmançılarla görüş keçirib.

Görüşdə AVF-nin prezidenti Şahin Bağırov, vitse-prezidentlər Faiq Qarayev və Bəhruz Quliyev, baş katib Faiq Orucov, İdarə heyətinin üzvləri, yarışa qatılmış "Murov Az Terminal", "Azərreyl" klublarının voleybolçuları, menecer və baş məşqçiləri, həmçinin federasiyanın digər əməkdaşları iştirak ediblər.

Görüş Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra çıxış edən Şahin Bağırov, çimərlik voleybolu tarixində ilk dəfə keçirilən Avropa Kubokunun (Beach Volley European Cup) qalibi olmuş "Murov Az Terminal" klubunun kollektivini təbrik edib. O, yarışda mübarizə aparmış və bir neçə mərhələ adlamış qadınlardan ibarət "Azərreyl" komandasının oyunçularına da uğurlu çıxışlarına görə təşəkkürünü bildirib.

Təmsilçilərimizin qitənin ən güclü 10 ölkəsinin komandalarına qarşı əzmkar oyun göstərdiklərini söyləyən Ş. Bağırov, bu nəticələrin ölkə voleybolu üçün önəmli olduğunu əlavə edib. AVF prezidenti qazanılan uğurda hər bir kəsin böyük əməyinin olduğunu qeyd edib. Qısa vaxtda əldə olunan bu uğura görə hərkəsi təbrik edib. Federasiya rəhbəri "Murov Az Terminal" klubunun adına layiq çıxış etdiyini vurğulayıb: "Murov bizim ən uca zirvələrimizdəndir və bu gün bu adı daşıyan "Murov Az Terminal" klubu çimərlik voleybolu tarixində ilk dəfə keçirilən Avropa Kubokunda bayrağımızı ən uca zirvədə dalğalandırdı".

Voleybolumuzun bütün istiqamətlərdə inkişafının vacibliyini vurğulayan Ş.Bağırov bununla bağlı bir çox işlər görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, görülən bu işlərdə məqsəd də məhz belə nailiyyətlərin qazanılmasıdır. O, bundan sonra da qələbələrimizin sayının çox olacağına,



klublarımızın, yığma komandalarımızın Avropa, dünya arenalarında uğurla çıxış edəcəklərinə əminliyini ifadə edib və hər bir voleybolçuya, mütəxəssisə uğurlar arzulayıb.

Sonra vitse-prezidentlər, baş katib və İdarə heyətinin üzvləri idmançılarımızın uğurlu çıxışı və qazanılan qələbə münasibətilə hər kəsi təbrik ediblər. Bu uğurların əsasının məhz ölkə çempionatlarından başlandığını, beynəlxalq arenada qazanılan qələbənin son bir neçə ayda ölkəmizdə keçirilən çimərlik voleybolu üzrə yarışların nəticəsi olduğu bildirilib. Qeyd olunub ki, hər kəsin ürəyi bir məqsəd üçün döyünəndə böyük qələbələr də qazanılır və bu nailiyyət məhz voleybolçuların, mütəxəssislərin birliyini nümayiş etdirir.

Tədbirdə çıxış edən məşqçilər və oyunçular göstərilən diqqət və qayğıya görə federasiya rəhbərliyinə minnətdarlıq bildiriblər. Sonra komandaların baş məşqçiləri idmançıların çıxışlarını dəyərləndirib, onlara gözəl mübarizə apardıqlarına görə təşəkkür ediblər.

Tədbirin sonunda Avropa Kuboku və çempionların imzası olan top AVF prezidentinə təqdim olunub.










Ağaoğlu
MY MOUNTAIN
ULUDAĞ
Ağaoğlu
Hayallerin gerçeğe dönüştüğü yer -
My Mountain Uludağ
Lobby Bar




# QOLF ÜZRƏ “ZƏFƏR” TURNİRİ

***Oktyabrın 6-sı Xəyal adasında (Dreamland) qolf üzrə “Zəfər” turnirinin açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Mərasimi giriş sözü ilə açan gənclər və idman nazirinin müavini Mariana Vasileva Gənclər və İdman Nazirliyi adından qonaqları salamlayıb. Turnirdə Azərbaycan və Türkiyədən ümumilikdə 72 idman-












çının iştirak edəcəyini söyləyən nazir müavini yarışın iki ölkənin qolf federasiyaları arasında əlaqələri daha da möhkəmləndirəcəyinə inamını ifadə edib.

Daha sonra çıxış edən Azərbaycan Qolf Federasiyasının prezidenti Rauf Xəlilov Türkiyə Qolf Federasiyasından böyük dəstək aldıqlarını vurğulayıb: "İki ölkə arasında bu turnir ilk dəfə keçirilmir. Bundan sonra yarış ənənəvi olacaq, gələn il Türkiyədə keçiriləcək". Bu günlərdə ölkəmizdə fərqli hisslər yaşandığını qeyd edən R.Xəlilov, Prezident İlham Əliyevin







xalqımıza xüsusi sevinc bəxş etdiyini bildirib: "Ali Baş Komandanın rəhbərliyi altında Qarabağda Azərbaycanın suverenliyi tam bərpa olundu. Bu yarışı da həmin qələbəyə həsr edirik".

Türkiyə Qolf Federasiyasının prezidenti Yıldırım Demirören iki ölkə arasında qolf sahəsində anlaşma imzalandığını qeyd edib: "Məqsədimiz gənclərə qolf idman növünü sevdirməkdir. Yarış növbəli şəkildə hər il Türkiyə və Azərbaycanda təşkil olunacaq. Azərbaycan mənim ikinci vətənimdir. Ona görə də burada sizləri qəbul etməkdən qürur duyuram. Qarabağ Azərbaycandır!".

Sonda Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı turniri təşkil etdikləri üçün hər iki ölkənin qolf federasiyasına təşəkkür etdiyini bildirib: "Türkiyə-Azərbaycan əlaqələrinin hər sahədə inkişaf etdirilməsi iki ölkənin ən böyük hədəfidir. Bu yarışı 30 illik həsrətə son qoyan Qarabağ Zəfərinə həsr edirik".

Rəsmi çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib. Qonaqlara maraqlı rəqs nümunələri, həmçinin Şuşa ilə bağlı videoçarx təqdim olunub.



# QOLF









Oktyabrın 8-də Xəyal adasında (Dreamland) start götürən qolf üzrə Zəfər Turnirinə yekun vurulub.

Gənclər və İdman Nazirliyi və Azərbaycan Qolf Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirin A kateqoriyasında Rəcəb Tural qızıl, Villiam Blankard gümüş, Elman Rzayev bürünc medal qazanıblar.

B kateqoriyasında isə Regina Bədəlbəyova qızıl, Villi Qarden gümüş, Kallum Stüart isə bürünc medala layiq görülüblər.



# FRANSADAN 5 MEDAL




***Azərbaycan karateçiləri "Marsel Open"də 5 medal qazanıblar. Komandamız Fransadan Vətənə 2 qızıl, 1 gümüş və 2 bürünc medalla qayıdıb.***

Yığmanın heyətində Asiman Qurbanlının çıxışı uğurlu olub. +84 kq-da çıxış edən karateçimiz bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıb. Digər təmsilçilərimizdən olan Turqut Həsənovla (84 kq) və Mədinə Sadiqova (55 kq) isə bürünc mükafatla kifayətləniblər.

Gənclər arasında yarışda isə Əzim Rahib fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. +76 kq-da çıxış edən Əzim, qazandığı qələbələri ilə çəkisinin ən güclüsü olduğunu sübut edib.

Digər karateçimiz Rəşid Süleymanov isə yarışın gümüş medalına sahib çıxıb. 76 kq-da çıxış edən Rəşid, finalda rəqibinə cüzi üstünlüklə uduzaraq fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.






"Bu turnirlər dünya çempionatına hazırlıq baxımından önəm daşıyır. Yarış yaxşı təşkil olunmuşdu. Tanıdığımız bütün favorit rəqiblər yarışa qatılmışdılar.

Bu yarışdan əvvəl İsveçin Bazel şəhərində baş tutan eyniadlı turnirdə bürünc medal qazanmışdım. "Marsel Open"də isə fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. Yarışlara yollanmazdan əvvəl Türkiyədə 2 həftəlik təlim-məşq toplanışına qatılmışdım. Şükürlər olsun ki, zəhmətim yerdə qalmadı. İndi Bakıya geri dönürəm, burda da 3 həftə məşq edib, Macarıstanın paytaxtında keçiriləcək dünya çempionatına yollanacağıq. Dünya çempionatında isə uğur qazanmaq asan deyil. Sadəcə indiki durumda mundialda uğur qazanmaq mənim üçün olduqca vacibdir. Hər şey qaydasındadır, yüksək səviyyədə hazırlaşıram. Ancaq qızıl medal üçün yarışacam.

"Marsel Open" turnirindəki qələbəmi Azərbaycan Ordusuna həsr edirəm. Allah şəhidlərimizə rəhmət eləsin".

***Ağa Dadaşzadə***






# DÜNYA ÇEMPİONATINDAN GÜMÜŞ MEDAL

***Yaponiyanın paytaxtı Tokioda böyüklər və yeniyetmələr arasında sumo üzrə dünya çempionatı keçirilib.***

İdman.biz xəbər verir ki, Azərbaycan hər 2 yarışda 2 idmançı ilə təmsil olunub.

Yığmamızın heyətində Röyal Ağamaliyev (85 kq) ikinci yeri tutub. O, böyüklər arasında Tacikistan, Macarıstan və Monqolustan sumoçularını məğlub edərək, finala kimi irəliləyib. Röyal həlledici görüşdə dəfələrlə dünya və Avropa çempionu olan ukraynalı Svyatoslav Semikrasla üz-üzə gəlib. Rəqib qələbə qazandığından təmsilçimiz gümüş medal qazanıb.

Digər 3 idmançımız fəxri kürsünün bir addımında büdrəyib və 5-ci olub.



## Azərbaycan sumo üzrə dünya çempionatına ev sahibliyi üçün namizədliyini verib

Dünya çempionatı ərəfəsində Tokioda Beynəlxalq Sumo Federasiyasının illik iclası da keçirilib. Tədbirdə Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyasının vitse-prezidenti Ülvi Ağamirovla Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayev də iştirak edib.

İclasda bir neçə məsələ müzakirə mövzusu olub, eyni zamanda, Beynəlxalq Sumo Federasiyasına prezident seçkiləri keçirilib. Kazufumi Minami quruma yeni rəhbər seçilib.

Toplantıda iştirak edən təmsilçilərimiz Azərbaycanın 2026-cı ildə sumo üzrə dünya çempionatının ölkəmizdə keçirilməsi namizədliyini irəli sürüb.









# PREZİDENT İLHAM ƏLİYEV SUMQAYIT ŞƏHƏR STADİONUNDA

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.***

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlətimizin başçısına stadionda görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli Sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.

Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb.







Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada, eyni zamanda, 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar var.

Son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli Bayrağımızı ucaldırlar. Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafının və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlib ki, belə idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində mühüm rol oynayır.



# “GƏNCƏ” VOLEYBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qadın voleybolçularından ibarət “Gəncə” klubu ilə görüş keçirib. Görüşdə Klubun Müşahidə şurasının sədri, millət vəkili Müşfiq Cəfərov, klubun prezidenti Elvar Osmanov, koordinatoru, Əməkdar məşqçi Elçin Süleymanov, baş məşqçi Sergey Çasnavitski, Gəncə Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşları və klub üzvləri iştirak ediblər.*

Niyazi Bayramov Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ölkədə idmana göstərilən xüsusi diqqət və qayğıdan





bəhs edərək, klubun üzvlərinə uğurlar arzulayıb.

Müşfiq Cəfərov səmimi görüş üçün şəhər rəhbərinə təşəkkürünü bildirib və klub haqqında geniş məlumat verib. O qeyd edib ki, “Heydər Əliyev İli” çərçivəsində təşkil olunan çimərlik voleybolu üzrə Azərbaycan çempionatında “Gəncə” klubu uğurla çıxış edərək gümüş medala sahib olub.

Görüşdə “Gəncə” klubunun gələcək fəaliyyəti barədə müzakirələr aparılıb.

Qeyd edək ki, qadın voleybolçularından ibarət “Gəncə” klubu 2023-cü ilin avqust ayında yaranıb. Qısa müddət ərzində kluba xarici ölkələrdən idmançılar cəlb olunub. Yeni mövsümdən klub Azərbaycan Yüksək Liqasında çıxış edəcək. Həmçinin, yeni mövsümün hazırlığına start verən klub ev oyunlarını Gəncə şəhərində keçirəcək.

“Gəncə” VK-nın prezidenti Elvar Osmanovla müsahibəni təqdim edirik.





*Elvar Osmanov*
*“Gəncə” VK-nın prezidenti*

# “ETİMADI DOĞRULDACAYIQ”

**- “Gəncə” bu il yüksək liqada debüt edəcək. Komandanın yaradılması təşəbbüsü necə ortaya çıxdı?**

- Qadın voleybolçulardan ibarət “Gəncə” klubunun yaradılması təşəbbüsü Azərbaycan Voleybol Federasiyasının rəhbərliyi tərəfindən gəlib. Ötən il ölkə çempionatında 4 klub mübarizə aparırdısa, yeni mövsümdə bu rəqəm 6-ya yüksələcək. “Gəncə” ilə yanaşı, “Buta” komandası da Yüksək Liqada debüt edəcək. Komandamız güclü voleybolçulardan təşkil olunub. Heyətin formalaşdırılması istiqamətində işlər davam etdirilir.

**- Klubun hədəfləri nə olacaq?**

- Təbii ki, çempionluq. Bizə göstərilən etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik. İndidən çempionat oyunlarının gərgin idman mübarizəsi şəraitində keçəcəyini söyləmək olar. Güclü rəqabət olacaq. Komandalar yeni mövsümə ciddi hazırlaşırlar.

- Komandanın məşqçilər korpusu demək olar ki, əcnəbilərdən təşkil olunub...

- Bəli, klub belaruslu mütəxəssis Sergey Çasnavitskiyə həvalə olunub. O, yetərincə peşəkar mütəxəssis olmaqla yanaşı, zəngin məşqçilik karyerasına məxsusdur. Qadın voleybolçulardan ibarət Belarus yığmasının baş məşqçisi olan Çasnavitski bir neçə kluba da rəhbərlik edib. Məşqçilər korpusunda digər belaruslu mütəxəssis Vladimir Moysieviç və argentinalı İqnasio Aqustin İbarra yer alıblar. Hər iki mütəxəssis yetərincə peşəkar məşqçilərdir.




**- Gəncə oyunlarını harada keçirəcək?**

- Klub yeni mövsümdə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün meydana çıxacaq. Ev oyunlarımızı Gəncə Olimpiya İdman Kompleksində keçirəcəyik. İdman qurğusunun döşəməsi Azərbaycan Voleybol Federasiyasının təşəbbüsü ilə tam təmir olunaraq, hazır vəziyyətə gətirilib. Etiraf etmək lazımdır ki, Gəncədə xeyli sayda voleybolsever var. Onlar hazırda çempionat oyunlarının başlanmasını səbirsizliklə gözləyirlər. Artıq klubumuzun azarkeş qrupu da formalaşıb. Çox sevindirici haldır ki, Gəncədə voleybol ilə məşğul olmaq istəyənlərin də sayı çoxdur.

**- Yerli gənc voleybolçulara şans vermək haqda planlarını nədir?**

- Klubun aşağı yaş qruplarında ibarət komandalarının formalaşdırılması istiqamətində işlər görülür. Ümid edirəm ki, növbəti mövsümdən komandamızın yetirmələri Yüksək Liqada mübarizə aparacaqlar. Aşağı yaş qruplarından ibarət komandalarımızın bölmələrinə xeyli sayda müraciətlər daxil olub. Peşəkar məşqçi-müəllimlərimiz onlar ara-

sında seleksiya işi apararaq potensiallı yeniyetmələri məşqlərə cəlb edirlər. Bu prosesə Azərbaycan Voleybol Federasiyasının rəhbərliyi tərəfindən də nəzarət olunur. Qurumun əsas məqsədi ölkəmizdə idmanın bu növünün kütləviliyinə nail olmaqdır. "Gəncə" klubu olaraq biz də bu kütləviliyə töhfə vermək niyyətindəyik.

**- Sizcə, "Gəncə" regionda idmanın bu növünün inkişafına təkan verə biləcəkmi?**

- "Gəncə" klubu qadın voleybolçuları arasında Azərbaycan çempionatları tarixində çıxış edəcək ilk region komandasıdır. Bu, regionda voleybolun inkişafına təkan verməklə yanaşı, idmanın bu növü ilə məşğul olmaq istəyənlərə motivasiya, gənclərdə voleybola yeni baxış gətirəcək. Gəncədə yerləşən orta təhsil müəssisələrində məktəblilər üçün klubumuzla bağlı təqdimatlar keçiririk. Həmin təqdimatlarda klubumuzda yer alan voleybolçular - millimizin üzvləri Nərmin Fərəcova, Leyla Parşkova, braziliyalı Fernanda Melo, serbiyalı Tiana Yovanoviç, rusiyalı Olqa Zaxarova, İrina Klimanova, Anastasiya Salina və digərləri iştirak edərək, zəngin karyeraları ilə bağlı məlumat verir, onları voleybol ilə məşğul olmağa çağırırlar. Komandamızın oyunçuları Gəncədə böyük coşğu ilə qarşılanır. Çox sevindirici haldır ki, ölkəmizin titullu voleybol klubları səfər oyunlarını keçirmək üçün doğma Gəncəmizə gələcəklər. Şəhər rəhbərliyi də klubumuzla yaxından maraqlanır. Bizə yaratdıqları yüksək şəraitə görə Azərbaycan Voleybol Federasiyasına öz minnətdarlığımızı bildiririk. Ölkə idmanında əldə olunan bütün nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsində mümkün olub. Gəncə klubu da ölkə çempionatında uğurla çıxış edərək avrokuboklara vəsiqə qazanmağı hədəfəyir. Növbəti məqsədimiz isə beynəlxalq arenada inamla irəliləyib, qələbələrimizlə xalqımıza sevinc bəxş etməkdir.

***Emin Ağa***
***İdman.biz***






# COKOVİÇ MEDVEDEVİ MƏĞLUB ETDİ

***Dünyanın ikinci raketkası, serb tennisçi Novak Cokoviç US Open-ın qalibi olub. Turnirin final görüşündə o, dünyanın üçüncü raketkası rusiyalı Daniil Medvedevə 6:3, 7:6 (7:5), 6:3 hesabı ilə qalib gəlib. Gərgin keçən görüşün müddəti 3 saat 17 dəqiqə olub.***

Turnirin qalibi Cokoviç 2000 reytinq xalı və 3 milyon dollar pul mükafatı qazanıb. Medvedev isə öz növbəsində 1200 reytinq xalı və 1,5 milyon dollar pul mükafatına sahib çıxıb.





ATP dünya reytinqində birinci pilləyə yüksələn Novak Cokoviçi onun əsas rəqibləri isveçrəli Rojer Federer, ispan Rafael Nadal və britaniyalı Endi Mörrey olduğu dövrlə müqayisə edib. Müqayisədən sonra Cokoviçin mətbuat konfransında səsləndirdiyi fikirlər belə olub.

"Bu fərqli rəqabətdir, çünki hazırda olan tennisçilərlə də gərgin mübarizə var. Ən yüksək səviyyədə üz-üzə gəldiyimiz illərin çoxunda Böyük Dəbilqə finalında Rojer, Rafa və ya Endi ilə qarşılaşmaq şansım yüksək idi.

Bu gün fərqlidir. Mən bu il Alkarazla üç epik oyun keçirdim və düşünürəm ki, bu səbəbdən də növbəti rəqabətlə bağlı müzakirələr gedir.

Xatırladaq ki, turnirin yarımfinalında Medvedev dünyanın birinci raketkası ispan Karlos Alkarası məğlub etmişdi. Cokoviç də öz növbəsində yarımfinal mərhələsində amerikalı Ben Şeltona qalib gəlmişdi.

Turnirdən sonra Peşəkar Tennis Assosiasiyası (ATP) yenilənmiş dünya reytinqlərini açıqlayıb.

ABŞ Açıq turnirində 24-cü Böyük Dəbilqə çempionluğunu qazanan serb Novak Cokoviç siyahıda ilk pillədə qərarlaşıb. O, Karlos Alkarası da geridə qoyub. Bir sıra dəyişikliklərin olduğu ilk "onluq" belədir.



**1 (+1) Novak Cokoviç (Serbiya) – 11,795 xal**
**2 (-1) Karlos Alkaras (İspaniya) – 8535 xal**
**3 Daniil Medvedev (Rusiya) – 7280 xal**
**4 Holger Rune (Danimarka) – 4710 xal**
**5 (+2) Stefanos Tsitsipas (Yunanıstan) – 4615 xal**
**6 (+2) Andrey Rublev (Rusiya) – 4515 xal**
**7 (-1) Yannik Sinner (İtaliya) – 4465 xal**
**8 (+1) Taylor Fritz (ABŞ) – 3955 xal**
**9 (-4) Kasper Ruud (Norveç) – 3560 xal**
**10 (+2) Aleksandr Zverev (Almaniya) – 3030 xal**

Düşünürəm ki, bizim idmanımızda çox yaxşı bir rəqabət mövcuddur. Alkarazın Sinner ilə mübarizəsini qeyd etməliyəm. Rune də var. Əlbəttə, Zverev, Tsitsipas, Medvedev nəsli haqqında da ağız dolusu danışa bilərəm... bunlar hələ də dünyanın ilk 5-liyində və ilk 10-luğunda olan tennisçilərdir... Tennis hələ də yaxşı vəziyyətdədir".

# Ruslan Abışov karyerasını başa vurur



***Azərbaycan millisinin və "Neftçi"nin sabiq futbolçusu Ruslan Abışov peşəkar karyerasını başa vurur.***

36 yaşlı müdafiəçi futbolla vidalaşmağa hazırlaşır. Ötən mövsümün sonunda "Zirə"dən ayrıldıqdan sonra klubsuz olan təcrübəli futbolçunun qərarını tezliklə açıqlayacağı gözlənilir.

Qeyd edək ki, Ruslan Abışov karyerası ərzində "Neftçi" və "Zirə" ilə yanaşı, "Xəzər Lənkəran", "Rubin" (Rusiya), "Qəbələ", "İnter" (hazırkı "Şamaxı"), "Sabah" və "Zirə" klublarının da formasını geyinib. "Ağ-qaralar"ın heyətində Premyer Liqanın ikiqat qalibi olan R. Abışov 2010/2011-ci illər mövsümünün ən yaxşı müdafiəçisi, 2012-ci ildə isə Azərbaycanın ən yaxşı futbolçusu seçilib. O, həmçinin yığmanın heyətində 2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarının qalibi olub.

# Azərbaycan Voleybol Federasiyası yığmanın baş məşqçisi ilə vidalaşıb




***Azərbaycan Voleybol Federasiyası (AVF) qadınlardan ibarət milli komandanın baş məşqçisi Ataman Güneyligillə yolları ayırıb.***

Bu barədə AVF-in prezidenti Şahin Bağırov jurnalistlərə açıqlamasında deyib.

O, yeni baş məşqçi axtarışına başladıqlarını bildirib: "Gənclər və İdman Nazirliyi ilə birlikdə prosesləri nəzərdən keçirəcəyik. İnanıram ki, yeni baş məşqçinin təyinatı məsələsində müsbət nəticələr əldə edəcəyik. Son Avropa çempionatının ardından reytinqimiz bir az yaxşılaşıb. Gələcəkdə daha da uğurlu olacağıq".

# "Zirə" İngiltərə klubu ilə əməkdaşlıq edəcək




***Azərbaycan Minifutbol Federasiyasının (AMF) prezidenti və "Zirə" Peşəkar Futbol Klubunun Müşahidə Şurasının sədri Orxan Məmmədov Bakıda İngiltərənin "Hall Siti", İrlandiyanın "Şelbrun" komandalarının, türk iş adamı Acun Ilıcalı ilə görüşüb.***

Görüş zamanı qarşılıqlı fikir mübadiləsi, gələcəkdə "Zirə" ilə əməkdaşlıq və ölkəmizdə əyləncə, idman və turizm sahələrinə sərmayələr haqqında müzakirələr aparılıb.

Sonda A. Ilıcalıya "Zirə" PFK-nın 10 nömrəli forması təqdim edilib.

# Azərbaycan taekvondoçuları beynəlxalq turniri 5 medalla başa vurublar




***Taekvondo üzrə Azərbaycan millisi Dohada keçirilmiş Qətər açıq çempionatını 5 medalla başa vurub.***

Federasiyadan verilən məlumata görə, yığma G1 kateqoriyalı yarışda 1 gümüş və 4 bürünc mükafata sahib çıxıb.

İdmançılardan yalnız finalda məğlub olan Cavad Ağayev (74 kiloqram) fəxri kürsünün ikinci pilləsinə yüksəlib. Səyyad Dadaşov (54 kiloqram), Qaşim Maqomedov (58 kiloqram), Həmidreza Badrialiabadi (+87 kiloqram) və Səmərrux Osmanova (53 kiloqram) isə bürünc medala yiyələniblər.

# Azərbaycan badmintonçuları Paris Olimpiadasına reytinq xalları verən yarışda iki medal qazanıblar

***Azərbaycan təmsilçisi Edi Reski Dviçayo Əlcəzairdə keçirilən "Algeria International 2023" beynəlxalq turnirində kişi badmintonçuların şəxsi kateqoriyasında qızıl medal qazanıb.***

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, turnirə əsas mərhələdən başlayan badmintonçu ilk görüşündə yerli idmançı Daoud Aymeni (21-6,21-16) mübarizədən kənarlaşdırıb.

Dviçayo növbəti görüşündə polşalı Dominik Kvintaya 2:0 (21-17,21-16) hesabı ilə qalib gəlib. 1/4 finalda Fransa təmsilçisi Yanis Qaudin Azərbaycan təmsilçisi ilə görüşü zədə səbəbindən davam etdirə bilməyib. Beləliklə, ilk seti 15-7 hesabı ilə öndə olan Dviçayo ən güclü "dördlüy"ə yüksəlib. O, yarımfinalda İtaliya badmintonçusu Kristofer Vittorianı 2:0 (21-18,21-11) hesabı ilə məğlub edib. Finala qədər keçirilən görüşlərdə rəqiblərinə bir set belə verməyən idmançı qələbə seriyasını həlledici görüşdə də davam etdirib. Badmintonçu fransalı Saşa Levekye ilə görüşdə ilk seti 15-21 hesabı ilə geridə bitirsə də, digər iki setdə (21-13,21-18) rəqibindən üstün oyun sərgiləyərək, "Algeria International 2023" turnirinin qızıl medalını qazanmaqla yanaşı, 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xalları verən yarışda hesabına 2500 reytinq xalı yazdırıb.







Paris Olimpiadasının təsnifat mərhələsində reytinq xalları verən yarışlarda uğurla çıxış edən Keişa Fatimə Zəhra da "Algeria International 2023" turnirini medalla başa vurub. Turnirin yarımfinal mərhələsinə kimi irəliləməyi bacaran Azərbaycanın qadın badmintonçusu şəxsi yarışda 1750 reytinq xalı toplayaraq bürünc medala sahib çıxıb. Keişa Fatimə Zəhra ən güclü "dördlüy"ə yüksəlmək uğrunda keçirilən görüşlərdə Əlcəzair, Fransa və İtaliyanı təmsil edən badmintonçulara qalib gəlsə də, finalın bir addımlığında bu kateqoriya üzrə turnirin qalibi olan fransalı Rosi Oktaviaya 3 set davam edən görüşdə 1:2 hesabı ilə uduzub.

# Azərbaycan boksçuları “Qızıl əlcək” turnirini üç medalla başa vurublar



***Serbiyanın Çaçak şəhərində boks üzrə “Qızıl əlcək” beynəlxalq turnirinə yekun vurulub.***

Azərbaycan millisi 15 ölkənin iştirak etdiyi yarışı 1 gümüş və 2 bürünc medalla başa vurub.

60 kiloqram çəkidə mübarizə aparan Ümid Rüstəmov (60 kq) finalda rusiyalı Nemət Səfərovla döyüşüb. Rəqib qələbə qazandığından Azərbaycan boksçusu gümüş medala yiyələnib.

Ondan əvvəl Ruslan Rüstəmov (63,5 kq) və Kamran Şahsuvarlı (75 kq) “Qızıl əlcəy”i 3-cü yerdə bitiriblər.

Yarışın ən yaxşı hakimi adına isə Anar Nağdıyev layiq görülüb. Beynəlxalq dərəcəli referi “Qızıl əlcəy”in təşkilatçıları tərəfindən xüsusi kubokla mükafatlandırılıb.

# Azərbaycanın 8 idmançısı Açıq Dünya Çempionatında qızıl medal qazanıb

***Türkiyənin Van şəhərində Budo Döyüş Növləri üzrə Açıq Dünya Çempionatı keçirilib. Yarışda Azərbaycanın 8 idmançısı qızıl medal qazanıb.***

“Free Kontakt” qaydası üzrə Ramil Abdullayev (7-8 yaş, 25 kiloqram), Vəli Vəliyev (15-16 yaş, 56 kiloqram), Sayad İmamverdiev (17-18 yaş, 60 kiloqram), Nurin Həsənov (17-18 yaş, 88 kiloqram) və Elnur İbrahimov (+18 yaş, 62 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

“B-1 Full kontakt” növündə isə İqbal Alıyev (17-18 yaş, 58 kiloqram), Məhəmmədəli Nuruşov (17-18 yaş, 62 kiloqram) və Ruslan Tağıyev (+18 yaş, 70 kiloqram) bütün rəqiblərinə qalib gəliblər.




32 ölkənin 1132 idmançısının qüvvəsini sınadığı Açıq Dünya Çempionatında komanda hesabında 1-ci yerə İran, 2-ci yerə Azərbaycan, 3-cü yerə Türkiyə, 4-cü yerə isə Əfqanıstan yığması layiq görülüb.

Qaliblərə kəmər, medal və diplomlar təqdim olunub.

# “Qarabağ” Avropa Futbol Akademiyası ilə əməkdaşlığa başlayıb



***“Qarabağ” və Avropa Futbol Akademiyası (EFA) arasında əməkdaşlıq barədə müqavilə imzalanıb.***

Klubdan verilən məlumata görə, imzalanma mərasimində Ağdam təmsilçisinin baş direktoru Emrah Çelikel, klubun futbol akademiyasının inzibati işlər üzrə direktoru Murat Karaman, EFA-nın təsisçi-direktoru Vüsal Mustafayev və baş menecer Kamran Bayramov iştirak ediblər.

Əməkdaşlığın perspektivlərindən bəhs edən E. Çelikel bildirib ki, bu addım “Qarabağ”a verilən dəyəri göstərir. O, anlaşmanın EFA-nın fəaliyyətinə əlavə stimul verəcəyinə və yeni futbolçuların akademiyaya cəlb olunmasında, onların inkişafında müsbət rol oynayacağına inamını ifadə edib: “Bu, Azərbaycan futbolu və “Qarabağ” üçün yeni gənc futbolçuların yetişməsi mənasında bir şansdır”.

V. Mustafayev isə deyib ki, “Qarabağ”la müqavilə imzalamaq EFA üçün çox önəmli və qürurvericidir: “Bu əməkdaşlıq sayəsində yerli futbolçularımız böyük arenalarda oynamaq şansı əldə edəcək, “Qarabağ”ın seçimi isə böyüyəcək və gənclər arasında rəqabət artacaq”.

Qeyd edək ki, müqaviləyə əsasən, “Qarabağ” klubu EFA-nın tərkibində fərqlənən, perspektiv vəd edən futbolçuları öz komandalarına qatmaq hüququna malikdir.
















**VIP Sport professional**

*Tofiq Bəhrəmov adına Respublika Stadionu*

*Tel: (+994 12) 564 86 23*

*Mob: (+994 55) 464 13 31*

**www.vipsport.az**


Mangal
STEAKHOUSE






Nəfis dadları bir araya gətirən
"Mangal Steak House"da
hər bir təam sənət əsəridir!
Bakı, Aydın Nəsirov 3
10:00 - 02:00
+994 (12) 505 10 11
+994 (50) 228 10 11
mangalsteak@gmail.com
mangal_steak_house
Mangal Steak House

Global
Human
Resource
Solutions

*Global Solutions for Global Challenges*

# XİDMƏTLƏRİMİZ

- ✓Yüksək kvalifikasiyalı kadrların seçilməsi
- ✓Fəaliyyətin qiymətləndirilməsi
- ✓Təlim və inkişaf
- ✓İR Autsorsinq və Autstaffinq
- ✓İR prosedurların və qaydaların hazırlanması
- ✓Layihələrin idarəolunması
- ✓Əməyin ödənilməsi və mükafatlandırma
- ✓Miqrasiya məsələri və işgüzar səfərlərin təşkili



+994 55 201 91 61
info@globalhrs.org
www.globalhrs.org

# NTC
LLC

New Technology Corporation

20 İL SİZİNLƏ



Siviero Maria®




*Handmade in Italy*

GELATO ITALIANO AUTENTICO

